AZƏRBAYCAN ORDUSU



# "Mənim dünyam" adlı bədii yaradıcılıq sərgisi keçirildi

*Həzi Aslanov adına Mərkəzi Zabitlər Evində İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin təşkilatçılığı ilə hərbi qulluqçuların və ailə üzvlərinin xüsusi istedad və bacarıqlarını nümayiş etdirmək, hərbi kollektivdə milli-mənəvi dəyərlərə bağlılığın formalaşdırılması məqsədi ilə əl işlərindən ibarət "Mənim dünyam" adlı bədii yaradıcılıq sərgisi keçirildi.*

Tədbirdə Müdafiə Nazirliyi Şəxsi Heyət Baş İdarəsinin Hərbi Orkestrinin, Rəssamlar İttifaqının nümayəndələri, hərbi qulluqçular və kütləvi informasiya vasitələrinin əməkdaşları iştirak edirdilər.

Öncə ümummilli lider Heydər Əliyevin və Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Tədbirdə mayor Ramil Qasımov sərgi haqqında geniş məlumat verərək bildirdi ki, mədəniyyət tarixi sahəsində qazanılmış təcrübə sübut edir ki, insanların mənəviyyatı, əxlaqi normaları və baxışları ilə bağlı olan milli-mənəvi dəyərlərin yaradıcısı xalqdır. "Xalqın mövcudluğunun əsas göstəricisi olan milli-mənəvi dəyərlər onun ən qiymətli sərvətidir. Hər bir xalq milli-mənəvi dəyərlər sisteminə malikdir. Milli-mənəvi dəyərlərimizdən biri də mədəniyyətimiz, incəsənətimizdir...".

Mərkəzi Zabitlər Evinin mədəni-bədii iş bölməsinin müdiri Gülxar Məmmədova bildirdi ki, biz bu məkana insan duyğularının təlatümündən yaranan ən ecazkar və sehrli bir sənət olan incəsənətin hərarətli işığına yığılmışıq. "İnsan təbiətin yaratdığı canlılardan biri olsa da yeganə, varlıqdır ki, hər şeyə yaradıcı münasibət bəsləyir. Bu boyda dünyaya sığmayanda özünün yaratdığı dünyaya sığınır, burada rahatlıq tapır. Özünün yaratdığı dünyadakı hisslərini, düşüncələrini çəkdiyi rəsm əsərlərinə, əl işlərinə köçürür. Özünü ifadə etməyə çalışır. Tədbirin adını təsadüfən "Mənim dünyam" adlandırmamışıq. Çünki burada nümayiş etdirilən hər bir əsər, hər bir əl işi müəllifin daxili dünyasının ifadəsidir..."

Əməkdar incəsənət xadimi Rafiq Kərimov rəsm sənətinin tarixindən söz açdı.

Əməkdar rəssam Aydın Rəcəbov qeyd etdi ki, dünyanın ən qədim xalqlarından olan Azərbaycanın mədəniyyəti çox zəngindir. Əgər bir xalqın mədəniyyəti yoxdursa, demək ki, heç o xalq mövcud deyil. Hər bir sahədə mədəniyyət var. Bunlardan biri də incəsənət mədəniyyətidir. İncəsənətin bütün sahələri bir-biri ilə bağlıdır.



Sərgi rəngkarlıq, dekorativ tətbiqi sənət, qrafika, bədii toxuculuq (tikiş, naxış), maket və digər əl işləri üzrə sahələri əhatə edirdi.

Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivinin maraqlı konsert proqramının sədaları altında iştirakçılar sərgi ilə daha yaxından tanış oldular.

Gizir Mehman Şıxəmirovun, baş çavuş Ellada Allahverdiyevanın, əsgər Əziz Nəbiyevin, hərbi qulluqçuların ailə üzvlərindən Məhin İbrahimovanın, Sehri və İnci Zeynalabdinovaların, Aylin Hüseynlinin və başqalarının əl işləri maraqla qarşılandı.

Sonda yaradıcı iştirakçılara fəxri fərmanlar təqdim olundu.

**Baş leytenant
Günay TAĞIYEVA,
"Azərbaycan Ordusu"**